# "ATASIĞORTA" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

**Maliyyə Hesabatları və Müstəqil Auditor Rəyi**
31 dekabr 2012-ci il tarixində başa çatmış il üzrə

## MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ ÜZRƏ RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI

31 DEKABR 2012-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ

Müstəqil auditor hesabatının 2-ci səhifədə təqdim olunmuş müstəqil auditor rəyində şərh edilən müstəqil auditorların məsuliyyətinə uyğun oxunmalı olan bu hesabat "AtaSığorta" Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra "Cəmiyyət") maliyyə hesabatları ilə bağlı rəhbərliyin müvafiq məsuliyyətini müstəqil auditorların məsuliyyətindən fərqləndirmək məqsədilə hazırlanmışdır.

Rəhbərlik Cəmiyyətin 31 dekabr 2012-ci il tarixinə maliyyə vəziyyətini, əməliyyatlarının nəticələrini və həmin tarixdə başa çatmış il üzrə pul vəsaitlərinin hərəkətini, kapitalda dəyişikliklər hesabatını düzgün və Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") müvafiq qaydada əks etdirən maliyyə hesabatlarının hazırlanmasına görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik aşağıdakılar üzrə məsuliyyət daşıyır:

- Uyğun mühasibat prinsiplərinin seçilməsi və mütəmadi olaraq tətbiq edilməsi;
- Məntiqli və məqsədəuyğun təxminlərin və qərarlanın qəbul edilməsi;
- BMHS-na uyğunluğun bəyan edilməsi və əgər bu standartlardan əhəmiyyətli kənarlaşmalar varsa, bu halların maliyyə hesabatlarında açıqlanması və izah edilməsi; və
- Əgər yaxın gələcəkdə Cəmiyyət işini normal şərtlər altında davam etdirəcəksə, hesabat tarixinə maliyyə hesabatlarını daimilik prinsipi əsasında hazırlanması.

Rəhbərlik həmçinin aşağıdakı məsələlər üzrə məsuliyyət daşıyır;

- Cəmiyyətin daxilində səmərəli və keyfiyyətli daxili nəzarət sisteminin işlənib hazırlanması, qurulması və möhkəmləndirilməsi;
- Cəmiyyətin maliyyə hesabatlarının MHBS-na uyğun olaraq düzgün hazırlanması və Cəmiyyətin maliyyə vəziyyətini istənilən zaman düzgün əks etdirən mühasibat sisteminin təşkil edilməsi;
- Yerli mühasibat sisteminin qanunvericilik və Azərbaycan Respublikasının mühasibat standartlarına uyğun olaraq təşkil edilməsi;
- Mümkün imkanlardan istifadə edərək Şirkətin aktivtərinin mühafizə edilməsinin təşkil olunması; və
- Saxtakarlıq, yanlışlıq və digər qanunauyğunsuzluq hallarının müəyyən ediiməsi və qarşısının alınması.

31 dekabr 2012-ci il tarixində başa çatmış il üzrə maliyyə hesabatlarının bəyan olunması 12 mart 2013-cü il tarixində İdarə Heyəti tərəfindən təsdiq olunmuşdur.

İdarə Heyəti tərəfindən:

| | |
|---|---|
| **Müseyib Əliyev** | **Dürdanə Bayramova** |
| **İdarə Heyətinin Sədri** | **Baş mühasib** |
| 12 mart 2013-cü il | 12 mart 2013-cü il |
| Bakı, Azərbaycan Respublikası | Bakı, Azərbaycan Respublikası |

AZƏRİ-AUDİT
AUDİTOR FİRMASI

AZERI-AUDIT
AUDITING FIRM

AZ-1052 Bakı, Təbriz küçəsi 97, mən.24
Tel: 511-78-08 Факс: 490-88-32

VOEN: 1300539751
E-mail: azeriaudit@mail.ru

24 apm., 97 Tabriz St, Baku AZ-1052
Tel: 511-78-08 Fax: 490-88-32

# MÜSTƏQİL AUDİTORUN HESABATI

**"AtaSığorta" Açıq Səhmdar Cəmiyyətinin Səhmdarlarına və İdarə Heyətinə:**

*Maliyyə hesabatları üzrə hesabat*

Biz "AtaSığorta" Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra "Cəmiyyət") 31 dekabr 2012-ci il tarixinə balans hesabatından və bu tarixdə başa çatmış il üzrə mənfəət və zərər, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti barədə hesabatlarından, habelə əhəmiyyətli uçot siyasətinin və digər izahedici qeydlərin qısa xülasəsindən ibarət olan əlavə edilmiş maliyyə hesabatlarının auditini apardıq.

*Maliyyə Hesabatları üzrə rəhbərliyin məsuliyyəti*

Rəhbərlik bu maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi üzrə məsuliyyət daşıyır. Həmin məsuliyyətə fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli səhvlər olmayan maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq daxili nəzarətin təşkili, tətbiqi və saxlanması; müvafiq uçot siyasətinin seçilməsi və tətbiqi; və müəyyən şəraitə münasib olan uçot ehtimallarının müəyyən edilməsi daxildir.

*Auditorun məsuliyyəti*

Bizim vəzifəmiz apardığımız audit əsasında bu maliyyə hesabatları üzrə rəy ifadə etməkdir. Biz auditi Beynəlxalq Audit Standartlarına uyğun aparmışıq. Bu standartlar bizdən etik normalara riayət etməyi və auditin planlaşdırılması və aparılmasını maliyyə hesabatlarında əhəmiyyətli səhvlərə yol verilmədiyinə kifayət qədər əmin olacaq tərzdə həyata keçirməyi tələb edir.

Auditə maliyyə hesabatlarında göstərilən məbləğlər və açıqlamalar barədə audit sübutunun əldə edilməsi üçün prosedurların həyata keçirilməsi daxildir. Seçilmiş prosedurlar, eləcə də fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, maliyyə hesabatlarının əhəmiyyətli səhvlər riskinin qiymətləndirilməsi auditorun mühakiməsindən asılıdır. Bu risklər qiymətləndirilərkən auditor müəyyən şəraitdə münasib olan audit prosedurlarının işlənib hazırlanması məqsədilə müəssisənin maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsinə aid olan daxili nəzarət elementlərini nəzərə alır, lakin bu zaman müəssisənin daxili nəzarət sisteminin səmərəliliyi haqqında rəy bildirmək məqsədini güdmür. Auditə həmçinin, tətbiq edilmiş uçot prinsiplərinin və rəhbərlik tərəfindən edilmiş mühüm ehtimalların qiymətləndirilməsi, o cümlədən ümumilikdə maliyyə hesabatlarının təqdim edilməsi üzrə qiymətləndirmənin aparılması daxildir.
Hesab edirik ki, əldə etdiyimiz audit sübutu auditor rəyinin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.

*Rəy*

Bizim fikrimizcə, maliyyə hesabatları 31 dekabr 2012-ci il tarixinə "AtaSığorta" Açıq Səhmdar Cəmiyyətinin maliyyə vəziyyəti və bu tarixdə başa çatmış il üzrə maliyyə nəticələri və pul vəsaitlərinin hərəkəti üzrə Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına müvafiq olaraq düzgün və ədalətli təsəvvür yaradır.

**Rafiq Namazəliyev**
**Direktor**

**Fuad Namazəliyev**
**Auditor**

12 mart 2013-cü il
Bakı, Azərbaycan Respublikası

“AtaSığorta” Açıq Səhmdar cəmiyyəti

## Mənfəət və zərər hesabatı
31 dekabr 2012-ci il tarixində başa çatmış il üzrə
*(Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31.12.2012 | 31.12.2011 |
|---|---|---|---|
| **Əsas əməliyyat gəlirləri** | 5 | **11 062 561** | **5 894 853** |
| *Birbaşa sığorta üzrə sığorta haqları* | | *9 423 922* | *4 456 511* |
| *Təkrar sığorta üzrə təkrarsığorta haqları* | | *1 421 168* | *1 049 558* |
| *Sığorta ödənişlərində təkrarsığortaçıların payı* | | *136 040* | *280 359* |
| *Təkrarsığortaya verilmiş müqavilələr üzrə komisyon muzdlar* | | *81 431* | *108 425* |
| **Xalis sığorta ehtiyatlarının dəyişməsi** | 6 | **(3 284 055)** | **(407 365)** |
| **İnvestisiya gəlirləri** | 5 | **783 947** | **729 778** |
| **Subroqasiya gəlirləri** | 5 | **43 732** | **55 119** |
| **Sair gəlirlər** | 5 | **65 813** | **72 309** |
| **CƏMİ GƏLİRLƏR** | | **8 671 997** | **6 344 694** |
| **Əsas əməliyyat xərcləri** | 5 | **(4 129 445)** | **(3 793 538)** |
| *verilmiş sığorta ödənişləri və sığorta məbləğləri* | | *(2 750 731)* | *(2 106 098)* |
| *qaytarılan sığorta haqları* | | *(268 302)* | *(332 140)* |
| *tənzimləmə xərcləri* | | *(231 566)* | *(407 392)* |
| *təkrarsığortaya verilmiş sığorta haqları* | | *(836 441)* | *(890 358)* |
| *qarşısıalınma tədbirləri fonduna ayırmalar* | | *(42 406)* | *(57 550)* |
| *sığorta fəaliyyəti üzrə sair xərclər* | | - | - |
| **İşlərin aparılması xərcləri** | 7 | **(3 928 103)** | **(2 708 487)** |
| **Sair xərclər** | 8 | **(57 632)** | **(127 057)** |
| **CƏMİ XƏRCLƏR** | | **(8 115 180)** | **(6 629 082)** |
| **MALİYYƏ MƏNFƏƏTİ (ZƏRƏRİ)** | | **556 817** | **(284 388)** |
| **Mənfəət vergisi xərci** | 9 | 82 898 | - |
| **Təxirə salınmış mənfəət vergisi xərci (gəliri)** | 9 | (142) | (405) |
| **HESABAT DÖVRÜNDƏ XALİS MƏNFƏƏT (ZƏRƏR)** | | **474 061** | **(283 983)** |

**İdarə Heyəti tərəfindən:**

**Müseyib Əliyev**
**İdarə Heyətinin sədri**

12 mart 2013-cü il
Bakı, Azərbaycan Respublikası

**Dürdanə Bayramova**
**Baş mühasib**

12 mart 2013-cü il
Bakı, Azərbaycan Respublikası

7-34-cü səhifələrdə izah olunmuş qeydlər bu maliyyə hesabatlarının ayrılmaz hissəsidir. Müstəqil auditor rəyi 2-ci səhifədə təqdim olunmuşdur.

**"AtaSığorta" Açıq Səhmdar cəmiyyəti**

**Balans hesabatı**
31 dekabr 2012-ci il tarixində başa çatmış il üzrə
*(Azərbaycan manatı ilə)*

| | Qeyd | 31.12.2012 | 31.12.2011 |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| **UZUNMÜDDƏTLİ AKTİVLƏR:** | | | |
| Torpaq, tikili və avadanlıqlar | 10 | 240 465 | 183 315 |
| Qeyri-maddi aktivlər | 10 | 79 076 | 56 638 |
| Uzunmüddətli maliyyə aktivləri | 11 | 1 054 453 | 595 000 |
| Sair uzunmüddətli aktivlər | 12 | 683 086 | 400 000 |
| | | 2 057 079 | 1 234 953 |
| **QISAMÜDDƏTLİ AKTİVLƏR:** | | | |
| Ehtiyatlar | 13 | 1 951 | 1 274 |
| Debitor borclar | 14 | 1 396 108 | 1 211 748 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 15 | 10 764 711 | 6 750 771 |
| Sığorta ehtiyatlarında təkrarsığortaçıların payı | 16 | 934 162 | 552 927 |
| Sair qısamüddətli aktivlər | | - | 116 |
| | | 13 096 931 | 5 049 654 |
| **CƏMİ AKTİVLƏR** | | **15 154 011** | **9 751 789** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | |
| **KAPİTAL:** | | | |
| Ödənilmiş nominal (nizamnamə) kapitalı | 17 | 6 600 000 | 5 000 000 |
| Əlavə kapital | | - | 600 000 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | | 301 942 | (172 120) |
| | | 6 901 942 | 5 427 880 |
| **UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR:** | | | |
| Sığorta ehtiyatları | 6 | 7 713 111 | 4 047 821 |
| Təxirəsalınmış vergi öhdəlikləri | 9 | 355 | 497 |
| Kreditor borcları | 19 | 42 750 | 344 |
| Sair uzunmüddətli öhdəliklər | 19 | 269 383 | 144 449 |
| Təkrarsığorta əməliyyatları üzrə öhdəliklər | 19 | 225 749 | 125 504 |
| Səhmdarla olan borclar | | - | - |
| | | 8 251 347 | 4 318 615 |
| **QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR:** | | | |
| Kreditor borclar | 20 | 721 | 5 294 |
| | | 721 | 5 294 |
| **Cəmi öhdəliklər** | | 8 252 069 | 4 323 908 |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **15 154 011** | **9 751 789** |

**İdarə Heyəti tərəfindən:**

**Müseyib Əliyev**
**İdarə Heyətinin sədri**
12 mart 2013-cü il
Bakı, Azərbaycan Respublikası

**Dürdanə Bayramova**
**Baş mühasib**
12 mart 2013-cü il
Bakı, Azərbaycan Respublikası

AZƏRBAYCAN RESPUBLİKASI BAKI ŞƏHƏRİ AtaSığorta AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

7-34-cü səhifələrdə izah olunmuş qeydlər bu maliyyə hesabatlarının ayrılmaz hissəsidir. Müstəqil auditor rəyi 2-ci səhifədə təqdim olunmuşdur.

“AtaSığorta” Açıq Səhmdar cəmiyyəti

## Kapitalda dəyişikliklər haqqında hesabat

31 dekabr 2012-ci il tarixində başa çatmış il üzrə

*(Azərbaycan manatı ilə)*

| | Ödənilmiş nizamnamə kapitalı | Əlavə kapital | | Bölüşdürül məmiş mənfəət | | Cəmi kapital |
|---|---|---|---|---|---|---|
| **31 dekabr 2009-cu il tarixinə qalıq** | **2 000 000** | **-** | | **896 413** | **-** | **2 896 413** |
| Hesabat dövründə xalis mənfəət | - | - | | 215 449 | - | 215 449 |
| Mülkiyyətçilərin kapital qoyuluşları | 2 000 000 | - | | - | - | 2 000 000 |
| Mülkiyyətçilər arasında kapitalın bölüşdürülməsi (dividendlər) | - | - | | (889 641) | - | (889 641) |
| Xalis mənfəət hesabına nizamnamə kapitalının artırılması | 800 000 | - | | - | - | 800 000 |
| **31 dekabr 2010-cu il tarixinə qalıq** | **4 800 000** | **-** | | **222 221** | **-** | **5 022 221** |
| Hesabat dövründə xalis mənfəət | - | - | | (283 983) | - | (283 983) |
| Keçmiş illərin bölüşdürülməmiş mənfəəti | - | - | | 111 863 | - | 111 863 |
| Əlavə kapital | - | 600 000 | | - | - | 600 000 |
| Nizamnamə kapitalına yönəldilməsi məqsədi ilə mülkiyyətçiyə hesablamalar | - | - | | (222 221) | - | (222 221) |
| Xalis mənfəət hesabına nizamnamə kapitalının artırılması | 200 000 | - | | - | - | 200 000 |
| **31 dekabr 2011-ci il tarixinə qalıq** | **5 000 000** | **600 000** | | **(172 120)** | **-** | **5 427 880** |
| Hesabat dövründə xalis mənfəət | - | - | | 474 061 | - | 474 061 |
| Mülkiyyətçilərin kapital qoyuluşları | 1 600 000 | - | | - | - | 1 600 000 |
| Əlavə kapitalın geri qaytarılması | - | (600 000) | | - | - | (600 000) |
| **31 dekabr 2012-ci il tarixinə qalıq** | **6 600 000** | **-** | | **301 942** | **-** | **6 901 942** |
| ***2012-ci il üzrə kapitalda ümumi dəyişikliklər*** | ***1 600 000*** | ***(600 000)*** | *-* | ***474 061*** | *-* | ***1 474 061*** |

**İdarə Heyəti tərəfindən:**

**Müseyib Əliyev**
**İdarə Heyətinin sədri**

12 mart 2013-cü il
Bakı, Azərbaycan Respublikası

AZƏRBAYCAN RESPUBLİKASI BAKI ŞƏHƏRİ
AtaSığorta
AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

**Dürdanə Bayramova**
**Baş mühasib**

12 mart 2013-cü il
Bakı, Azərbaycan Respublikası

7-34-cü səhifələrdə izah olunmuş qeydlər bu maliyyə hesabatlarının ayrılmaz hissəsidir. Müstəqil auditor rəyi 2-ci səhifədə təqdim olunmuşdur.

"AtaSığorta" Açıq Səhmdar cəmiyyəti

## Pul vəsaitinin hərəkəti haqqında hesabat

31 dekabr 2012-ci il tarixində başa çatmış il üzrə

*(Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31.12.2012 | 31.12.2011 |
|---|---|---|---|
| Müştərilərdən daxil olan pul vəsaitləri | 15 | 10 061 614 | 5 329 160 |
| Təchizatçılara və işçilərə ödənilən pul vəsaitləri | 15 | (6 210 518) | (6 720 278) |
| **Əməliyyatlardan əldə olunan pul vəsaitləri** | | **3 850 331** | **(1 391 118)** |
| Ödənilmiş mənfəət vergisi | | - | - |
| **Əməliyyat fəaliyyətindən xalis pul vəsaitlərinin hərəkəti** | | **4 450 331** | **(1 391 118)** |
| Əsas vəsaitlərin satılması | 10 | 4 580 | 14 110 |
| Əsas vəsaitlərin alınması | 10 | (735 258) | (103 999) |
| Alınmış faizlər şəklində pul vəsaitlərinin daxilolmaları | 11 | 705 224 | 613 553 |
| Ödəniş tarixinədək saxlanılan investisiyaların satılması | 11 | 195 000 | 1 299 266 |
| Ödəniş tarixinədək saxlanılan investisiyaların alınması | 11 | (1 003 938) | |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti** | | **(834 392)** | **1 822 930** |
| Səhmlərin emissiyasından daxilolmalar | 15.17 | 1 600 000 | 600 000 |
| Əlavə kapitalın geri qaytarılması | | (600 000) | - |
| Ödənilmiş dividendlər | | - | - |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən yaranan pul vəsaitlərinin hərəkəti** | | **1 000 000** | **600 000** |
| Mübadilə məzənnələrinin dəyişməsinin təsiri | | (1 999) | 32 193 |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması)** | | **4 013 941** | **1 064 005** |
| Pul vəsaitləri və onların ekvivalentləri, *ilin əvvəlində* | 15 | 6 750 771 | 5 686 766 |
| Pul vəsaitləri və onların ekvivalentləri, *ilin sonunda* | 15 | **10 764 711** | **6 750 771** |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin komponentləri** | | | |
| Pul vəsaitləri | 15 | 379 711 | 229 466 |
| Bank depozitləri | 15 | 10 385 000 | 6 521 305 |

**İdarə Heyəti tərəfindən:**

**Müseyib Əliyev**
**İdarə Heyətinin sədri**

12 mart 2013-cü il
Bakı, Azərbaycan Respublikası

**Dürdanə Bayramova**
**Baş mühasib**

12 mart 2013-cü il
Bakı, Azərbaycan Respublikası

AZƏRBAYCAN RESPUBLİKASI BAKI ŞƏHƏRİ AtaSığorta AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

7-34-cü səhifələrdə izah olunmuş qeydlər bu maliyyə hesabatlarının ayrılmaz hissəsidir. Müstəqil auditor rəyi 2-ci səhifədə təqdim olunmuşdur.